XALQ QƏZETİ 15 fevral 2019-cu il, cümə

# Beyləqanlılar Prezidentin rayona qayğısını yüksək dəyərləndirirlər



***Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfəri həmişə ciddi yeniliklərlə yadda qalır. Bu səfərlərdə ölkə rəhbəri son illər aparılan abadlıq-quruculuq işlərinə böyük diqqət yetirir, bölgələrdə görülən işlərlə yerindəcə tanış olur, rayon rəhbərlərinə növbəti tapşırıq və tövsiyələrini verir. Bu baxımdan dövlət başçısının Beyləqan rayonuna səfəri də böyük önəm daşıyır. Ölkə rəhbərinin Beyləqana səfəri ilə bağlı rayon sakinlərinin təəssüratlarında da Prezidentin bölgələrin hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğı minnətdarlıqla vurğulanır.***

**Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Mehriban İsgəndərova:**

– Bu gün regionlarımızın günbəgün inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Cənab Prezidentin rayonumuza səfəri və əsaslı təmirdən sonra Tarix-Diyarşünaslıq Muzeyinin, Beyləqan Olimpiya İdman Kompleksinin və rayonda yenidən qurulan "Beyləqan-1" yarımstansiyasının açılışında iştirak etməsi hər kəsdə böyük sevinc və məmnunluq doğurdu. Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, rayon və şəhərlərdə kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir.

**Rayon ağsaqqallar şurasının sədri Ələmşad Məmmədquliyev:**

– Möhtərəm Prezidentimizin rayonumuza səfəri hər birimizdə yüksək əhval-ruhiyyə doğurur. Beyləqanlılar hər zaman dövlət başçısının siyasi kursunu dəstəkləyirlər. Onun apardığı daxili və xarici siyasət sayəsində tezliklə torpaqlarımızın işğaldan azad ediləcəyinə inanırıq. Möhtərəm Prezidentimizin son illər bölgələrə səfərləri müntəzəm xarakter almışdır. Prezident İlham Əliyev Beyləqana altıncı dəfədir ki, səfər edir. Bu səfərlərin hər biri rayonumuz üçün əlamətdar hadisələrlə yadda qalmışdır. Ölkə başçısının səfəri zamanı bir sıra sosial obyektlərin açılışı oldu. Bütün bunlar rayonumuza göstərilən diqqət və qayğının bariz nümunəsidir.

**Nahidə Ağayeva, rayon sakini:**

– Son illər ölkəmiz sürətlə inkişaf edir, həyat dəyişir, şəhər, kəndlər yeniləşir. Dövlət başçısının Beyləqana səfəri də bu baxımdan yaddaqalan oldu. Cənab Prezident səfər çərçivəsində sir sıra sosial obyektlərin açılış mərasimində iştirak etdi. Bundan başqa, ölkə başçısının rayon sakinləri ilə səmimi söhbəti bizim üçün unudulmaz anlar yaşatdı. Beyləqanlılar Prezident İlham Əliyevin yürütdüyü kursu daim dəstəkləyir, onun daxili və xarici siyasətini ürəkdən bəyənirlər.

**Sahib Nəsibov, rayon sakini:**

– Mən ölkə başçısının rayonumuza səfərindən çox razı qaldım. Prezident İlham Əliyevin Beyləqan Olimpiya İdman Kompleksinin və digər sosial obyektlərin açılışını etməsi bizi çox sevindirdi. İdman kompleksinin açılışı rayonun idman ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılandı. Biz hər birimiz bütün görülən işlərə görə ölkə başçısına öz minnətdarlığımızı bildiririk.

**Babək Hacıyev, rayon sakini:**

– Bu gün bölgələrimizin sürətlə inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bütün bunlar isə dövlət başçımızın həyata keçirdiyi uğurlu siyasət sayəsində mümkün olmuşdur. Biz beyləqanlılar da bu gün öz həyatımızda bunun şahidi oluruq. Belə ki, Prezident İlham Əliyevin rayonumuza səfəri və görülən işlərlə yerindəcə tanış olması bizi çox məmnun etdi. Ölkə başçısının rayonda yerləşən "N" saylı hərbi hissədə yaradılmış şəraitlə tanış olması düşmənin təmas xəttinə yaxın bölgədə məskunlaşmış beyləqanlılarda ərazilərimizin etibarlı müdafiəsi ilə bağlı əminliyi bir daha artırdı.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"***